# METODİKA

## İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ KOMMUNİKATİV METOD

M.MƏMMƏDZADƏ

Tərəqqi etmiş ölkələrin təcrübəsi göstərir ki, cəmiyyətin inkişaf dinamikası təhsilin vəziyyətindən və səviyyəsindən, qazanılmlş biliklərin tətbiqindən birbaşa asılıdır. Ona görə də bu ölkələrdə təhsil dövlət üçün strateji əhəmiyyətli məsələ olub, ölkənin rəhbərlərinin və ictimaiyyətin daim diqqət mərkəzindədir. Məhz bu gün ingilis dilinin öyrənilməsi, uşaqların şəxsi işi olmayıb valideynlərin meyl və marağı nəzərə alınmaqla sosial sifarişlə dövlətin təhsil siyasəti və millətin gələcəyi ilə bağlıdır.

Mövcud xarici dil proqramı təlimin həyatla əlaqəsini daha da möhkəmləndirmək və xarici dilin mənimsənilməsinin praktik istiqamətlərini gücləndirmək məqsədini güdmüşdür. Ona görə də xarici dil anlamı dil təliminin nitq və dil vərdişlərinin birgə vəhdəti əsasinda reallaşması yönümündə tərtib edilmişdir. Bu məqsədlə xarici dilin yüksək səviyyədə tədrisində əsaslı dəyişikliklər etmək tələb olunur. Müstəqil respublikamızda dərsliklərin və dərs vəsaitlərinin təkmilləşdirilməsi məsələsi də əsas problem kimi qarşıya qoyulur.

Respublikamızın ali və ümumtəhsil məktəblərində xarici dilin kommunikativ metodla tədrisi, yəni xarici dildə ünsiyyət yaratmaq vərdişi və bacarığın aşılanması təhsilin vacib məqsədinə çevrilmişdir.

Əlbəttə, biz mövcud proqramda göstərilən bütün məqsədlərin həyata keçirilməsindən deyil, yalnız kommunikativ məqsədin-qarşılıqlı ünsiyyətin, interaktiv fəaliyyətin hazırlıq mərhələsini təşkil edən dialoji nitqin qurulması, onun təşkili məsələlərindən danışmağı nəzərdə tuturuq. Xarici dil üzrə kommunikasiya canlı danışığın qurulması, interaktiv fəaliyyətin formalaşmasını tələb edir. Əbəs deyildir ki, bir çox müəllim və pedaqoqlar bəzən interaktiv metod, bəzən də interaktiv кurs və interaktiv fəaliyyət deməklə, onun xeyli əhəmiyyətli olduğunu, dövrün tələbi olduğunu deməyə çalışırlar.

"İnteraktiv" sözü termin olaraq dilimizdə yeni işlənsə də, əslində bu fəaliyyət dərslərimizdə nəzərdə tutulan əsas praktik məqsədlərdən biri olmuşdur. Biz əvvəllər də monoloji və dialoji nitqin

inkişaf etdirilməsini, yəni danışmanın əsas məqsəd kimi təmin olunmasını nəzərdə tuturduq. Hazırda yenilik ondan ibarətdir ki, danışmanın daha canlı, daha fəal forması olan dialoji nitqin inkişafını bir qədər önə çəkirik. Çünki dialoji nitq kommunikasiyaya daha yaxındır, ünsiyyət prosesidir, gələcək interaktiv fəaliyyətdir.

Lakin biz dediyimiz məqsədə nail ola bilmişikmi? O qədər də yox! Müşahidələr və məktəb təcrübəsi onu deməyə əsas verir ki, müəllimlərimiz praktik məqsədin qoyuluşunda çox vaxt məqsədyönlü iş aparırlar.

Bu mənada etiraf etmək lazımdır ki, istifadə olunan dərsliklərin də müəyyən qüsuru olmuş, dialoqun adı çəkilən növlərinə ya heç yer verilməmiş, ya da çox az yer verildiyindən mənimsənilməmişdir.

Belə çətinlikləri aradan qaldırmaq üçün ingilis dilinin tədrisinə I sinifdən başlamağı məqsədəuyğun hesab etdik.

Elm cəmiyyətin inkişafından geri qalarsa, öz əhəmiyyətini itirər. Bildlylmlz kimi dünya təcrübəsində 4 tip orta ümumtəhsil məktəbi fəaliyyət göstərir. Orta ümumtəhsil məktəbinin yüksək pilləsi sayılan gimnaziya və litseyləri bitirən hər bir şagird ən azı üç xarici dil bilir. Bu məqsədlə biz xarici dilin daha mükəmməl öyrənilməsi üçün 5 yaşlılardan ibarət birinci sinifdə ikinci yarımildən, 6 yaşlılarda isə tədris ilinin başlanğıcından eksperimentə başladıq. Birinci sinifdə ingilis dilini tədris etmək üçün təsdiqlənmiş I-IV siniflər üçün proqram, proqrama əsasən təsdiqlənmiş "My ABC book-1" dərs vəsaiti, "Let`s Speak English" metodik vəsaiti və "Birinci sinifdə ingilis dili dərsləri" müəllim kitabının tətbiqi yeni məsələ oiduğundan aidiyyəti qurumların (Təhsil Problemləri İnstitutu və Təhsil Nazirliyinin müvafiq idarələri) iştirakı ilə bir daha Azərbaycan Respublikası Təhsil nazirinin iştirakı ilə müzakirə olunaraq gimnaziyalarin I siniflərində tətbiqinə icazə verildi. Bunu nəzərə alaraq mən yeni təlim texnologiyalarından istifadə etmə metodikasını işləmişəm.

Təhsil Nazirliyinin həyata keşirdiyi islahat proqramına uyğun olaraq müxtəlif ölkələrin təcrübəsindən bəhrələnərək, bu əsasda yeni tədris proqramları və təlim texnologiyayarı tətbiq etmək məqsədilə eksperimentlər aparılır.

2002/2003-cü tədris ilində gimnaziyada və 59 saylı uşaq bağçasında ingilis dilinin təlimi I sinifdə 5-6 yaşlılarda həftədə 2 saat nəzərdə tutulmaqla dərs cədvəlinə daxil edildi.

Bu fənnin tədrisi prosesində şagirdlər ingilis dilini I sinifdən sistemli şəkildə öyrənir və mənimsəyirlər.

Həmin fənni tədris edən müəllimlər üçün I sinifdə ingilis dilinin tədrisinə dair kompleks dərs vəsaitləri tətbiq edilmişdir.

Indi isə biz mövcud proqramda göstərilən bütün məqsədlərin

həyata keçirilməsindən deyil, yalnız kommunıkativ məqsədin-qarşılıqlı ünsiyyətin, interaktiv fəaliyyətin hazırlıq mərhələsini təşkil edən dialoji nitqin qurulması, oyunların təşkili məsələlərindən danışmağı nəzərdə tuturuq.

Ibtidai siniflərdə xarici dil təlimi şagirdlərin təlimi, tərbiyəsi və inkişafı ilə əlaqədar aparılmalıdır.

Proqramda tədris mərhələlərinin xarakteristikası verilmişdir.

Ibtidai tədrisin bütün kursunu 3 mərhələyə bölürük:

**I mərhələ (köməkçi mərhələ) – 1-ci sinif**

**II mərhələ (əsas mərhələ) – 2-3-cü siniflər**

**III mərhələ (yekun mərhələ) – 4-cü sinif**

Mövcud ibtidai mərhələnin I-IV sinifləri üçün tərtib olunmuş ingilis dili proqramının qarşıya qoyduğu məqsəd kommunikasiyanın, canlı danışığın qurulması interaktiv fəaliyyətin formalaşdırılmasını tələb edir.

Xarici dil üzrə kommunikasiya, canlı danışığın qurulması, interaktiv fəaliyyətin formalaşdırılmasını tələb edir.

Ibtidai siniflərdə xarici dillərin tədrisinin məqsədi (ümumtəhsil, praktik, tərbiyəvi və inkişafetdirici), (linqvistik, psixoloji, metodoloji) və prinsipləri (kommunikativ, diferensasiya və ana dilinin nəzərə alınması) olmalıdır.

İbtidai mərhələdə xarici dilin ünsiyyət vasitəsi kimi öyrədilməsi şagirdlərin intellektual səviyyəsini, şəxsi keyfiyyətini inkişaf etdirir və onları ümumbəşəri dəyərləri qiymətləndirməyə istiqamətləndirir. Beləliklə, şagirdlər başqa xalqların mədəniyyəti ilə tanış olur, həyata şəxsiyyət kimi hazırlanırlar.

Təhsil sahəsində son illər aparılmış tədqiqatlar və araşdırmalar bu qənaətə gəlməyə əsas verir ki, öyrənənlər üçün biliklərin öyrənilməsində yeni təlim texnologiyalarının rolu əvəzsizdir. Belə yanaşmaya görə tədris zamanı müxtəlif üsullara müraciət edilməsi dərketmə prosesini yaxşılaşdırmağa, nəticələri daha yaxşı mənimsəməyə şərait yaradır.

Burada bir məqamı xüsusi qeyd etmək lazımdır. Vəsaitdəki dialoqlar əslində müsahiblər tərəfindən ifadə olunan ayrı-ayrı mikromonoloqlardan ibarətdir. Elə ona görə də I-IV siniflərin proqramı dialoji nitqdə kommunikasiyanın daha canlı formasına üstünlük verir və onların hər bir növündən istifadə etməklə interaktiv fəaliyyətin təmin olunmasını əsas şərt kimi qarşıya qoyur. Beləliklə, interaktiv dərs, interaktiv fəaliyyət, interaktiv metod və s. adı aitında müəllimlərimiz ilk növbədə dialoqun hər bir növündən istifadə edəcək. Yalnız bundan sonra qarşılıqlı ünsiyyət, fəal dialoq-müsahibə təmin oluna bilər.

Gəlin şəxsiyyət inkişafı ilə əlaqədar olaraq tədris metodları sahəsində nəzəri tədqiqatları ilə seçilən Şərq və Qərb alimlərinə

müraciət edək. Onlar belə hesab edirlər ki, 5-6 yaşlı uşaqlarda dil fərqləri formalaşmadığı dövrdə hansı dili öyrətsən onu da öyrənər.

Bu yaşda uşaqlara verilən biliyin dəmirə, beyinlərinin isə maqnitə bənzədilməsi, flora və faunaya maraq, musiqini tez qavraması və əxlaqi, estetik hisslərinin formalaşması, laylaları, şerləri və mahnıları uzun müddət yaddaşlarında saxlamaları "uşaqlıqda öyrədilən bilik daş üstünə həkk edilmiş bir yazıya bənzədilir" faktorunu bir daha sübut edir.

Kommunikativ metodla dilin birinci sinifdən öyrədilməsi həqiqətən də ümumtəhsil məktəblərində mövcud proqrama hazırlıq məphələsi də hesab edilə bilər. Xarici dilin öyrənilməsinin ilkin mərhələsini dialoji və monoloji nitq əhatə edir. Buna görə də onların öyrəndikləri dil materialları da kommunikativ və funksional məqsəd daşıyır.

Birinci sinfin əsasını "İngilis dilində danışaq" rubrikası altında təklif olunan didaktik oyun materialı linqvistik keyfiyyətlərin kriteriyasına daxil olan funksional dil materiallarından nəzərdə tutulan (salamlaşma, özünü təqdim etmə, ailə üzvləri haqqında məlumat verməк, münasibəti bildirmək, vidalaşmaq, təəccüb, xahiş, xəbərdarlıq, təbriklər, icazə, üzrxahlıq, təşəkkür, razılıq, narazılıq, sevinc, kədər, inamsızlıq, təəssüf və bunlara verilən reaksiyaya münasibət, dəvət və s.) keyfiyyətləri aşılamaq üçün xarici dillərin tədrisi sahəsi təşkil edir. Birinci sinif kursunun əhatə dairəsinə dialoqlar, 200 söz, mahnı, şer, rəqs, saymaq, idman oyunları daxildir.

Artıq davam edən eksperimentin müsbət nəticəsi göstərdi ki, birinci sinifdən ingilis dilinin tədrisi xüsusi əhəmiyyət kəsb edir.

Birincilərdə rast gəldikləri situasiyalara ingilis dilində cavab vermək bacarığının aşılanmasını sübut edən faktorlardan yeni il şənliyində və əlifba bayramında onların səhnədə ilk dəfə ingilis dilində çıxışı oldu.

Rüblük, yarımillik və yekun nəticələri qiymətləndirmək üçün keçirilən monitorinqin nəticələrindən məlum oldu ki, proqram üzrə tərtib olunmuş vəsaitlərdəki materiallar tam mənimsənilmiş, şagirdlərin yaş səviyyələrinə uyğun tərtib edilmiş və şifahi nitqi inkişaf etdirməyə xidmət edir. Vəsaitdəki materiallar şagirdlərimizə öyrənmək üçün imkan yaradır. Dialoqların modellərdə verilməsi şagirdlərdə elementar səviyyədə rast gəldikləri situasiyalarda cavab vermək qabiliyyəti, "cütlüklərdə" işləmək imkanı aşılamışdır. Ingilis dilində sözləri deyərək şagirdlərimizin oynadığı idman oyunları isə "qruplarda" işləmək imkanı aşılayır.

Şagirdlərimizin oxuduqları mahnılar, 1-10 dairəsində həll etdikləri misallar, qrammatik biliklərin, dialoqların tərkibində öyrənilməsi interaкtiv fəaliyyətin sintezinə nail olmağı sübut edən

faktordur.

Təhsil Nazirliyinin monitorinq qrupunun gəldiyi nəticələrə əsasən 5 yaşlılardan ibarət eksperiment birinci siniflər üçün hazırlanmış tədris vəsaitləri ilə mənim və müəllimlərin apardığı dərslər effektli nəticələrə səbəb olmuşdur. Şagirdlər həyat və məişətdə ən çox işlədilən sözlər daxilində cümlə qurmağı, onlardan ünsiyyət prosesində istifadə etməyi bacarırlar. Ingilis dilində hazırlanan səhnəciklərdə də fəal iştirak edirlər. Ümumi götürdükdə eksperiment aparılan birinci siniflərin təcrübəsi göstərir ki, 5-yaşlıların ingilis dilinə olan marağı ildən-ilə artır və bu iş sonrakı siniflərdə də davam etdirilməlidir.

**İşdən gözlənilən nəticələr aşağıdakılardır:**

1. Pedaqoji eksperiment göstərdi ki, təklif olunmuş iş sistemi məktəb praktikasına öz təsirini üç istiqamətdə göstərmişdir: birincisi, müəllimlərin elmi-metodik hazırlığının səviyyəsinə, ikincisi, şagirdlərin inkişafına və interaktiv fəaliyyətinin təşkilinə, üçüncüsü isə müəllim-şagird-valideyn münasibətinin tənzimlənməsinə. Eksperimentə cəlb olunmuş müəllimlərin elmi-metodik hazırlığında əsaslı irəliləyiş olmuşdur. Hər şeydən əvvəl, onlar proqram, dərslik və metodikalara tənqidi münasibətlə yanaşmağı öyrənmişlər. Müəllim-şagird münasibətlərinin qurulmasında eksperimentator müəllimlər tamamilə humanist yollar seçə bilirlər və şagirdi subyekt hesab edirlər. Şagirdlərin idrakının inkişafına təsir göstərən metodlardan geniş istifadə edirlər.

2. İbtidai mərhələ üzrə təklif olunmuş iş sistemi bütövlükdə ingilis dilinin tədrisində müəllimlərin elmi-metodik hazırlığının səviyyəsinə, şagirdlərin inkişafına və interaktiv fəaliyyətin təşkilinə və müəllim-şagird-valideyn münasibətinin tənzimlənməsində irəliləyiş yaratmaq imkanına malikdir.

3. Eksperimentin və təcrübi praktik işin təşkili zamanı mövcud proqram, dərs vəsaiti, şagirdlər üçün metodik vəsait və müəllim kitabından kənara çıxmalara yol verilməmişdir.

4. Dərs vəsaitində yuxarıda göstərilən problemin həlli üçün gimnaziya və litseylərin ibtidai mərhələsi ilə sonrakı mərhələsi arasındakı varislik təmin edilmişdir.

5. Məktəbin maddi bazası ixtisaslı və pedaqoji kadrlarla təmin olunması səviyyəsindən asılı olaraq dərs vəsaitində şagirdlərin şifahi nitqinin inkişaf etdirilmə mexanizmi işlənib. Vəsaitlə işləyən 20-yə yaxın ümumtəhsil məktəbində ingilis dili müəllimləri və ixtisasartırma kurslarını keçən müəllimlər dövrün tələbi oian interaktiv fəaliyyət və interaktiv dərs zamanı xarici dil üzrə kommunikasiyaya canlı danışığın qurulmasına və interaktiv fəaliyyətin formalaşmasına nail olublar.

Nəticə olaraq qeyd etmək istərdim ki, şagirdlərə elementar sə-

viyyədə rast gəldikləri situasiyalarda cavab vermək qabiliyyəti aşılamaq üçün dialoqların modellərdə verilməsi ən optimal variantdır. Belə bir strategiyanın seçilməsində əsas məqsəd cütlüklərdə və qrup halında müstəqil işləmək və interaktiv fəaliyyətin sintezinə nail olmaqdır.

**КОММУНИКАТИВНЫЙ МЕТОД АНГЛИЙСКИХ УРОКОВ**

**М.МАМЕДЗАДЕ**

**РЕЗЮМЕ**

В статье указана информация относительно коммуникативного метода английских уроков.

В то же самое время рассмотрена цель обучения иностранным коммуникативным методом I-IV классах. Опыты показали, что возможности обучения очень широки и для их реализации должны быть предприняты серьезные меры.